Azərbaycan Respublikasının
Auditorlar Palatası

2025-ci il

# Azərbaycan Respublikasının Auditorlar Palatası

## 31 dekabr 2025-ci il tarixə Maliyyə hesabatları və müstəqil auditorun hesabatı

**MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ ÜZRƏ RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI**

**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**

Müstəqil auditor hesabatında şərh edilən müstəqil auditorların məsuliyyətinə uyğun oxunmalı olan bu hesabat Azərbaycan Respublikasının Auditorlar Palatasının maliyyə hesabatları ilə bağlı rəhbərliyin müvafiq məsuliyyətini müstəqil auditorların məsuliyyətindən fərqləndirmək məqsədilə hazırlanmışdır.

Rəhbərlik Azərbaycan Respublikasının Auditorlar Palatasının 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, əməliyyatlarının nəticələrini və həmin tarixdə başa çatmış il üzrə pul vəsaitlərinin hərəkətini, kapitalda dəyişikliklər hesabatını düzgün və mövcud qanunvericiliyə müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik aşağıdakılar üzrə məsuliyyət daşıyır:

- Uyğun mühasibat prinsiplərinin seçilməsi və mütəmadi olaraq tətbiq edilməsi
- Məntiqli və məqsədəuyğun təxminlərin və qərarların qəbul edilməsi
- Mövcud qanunvericiliyə uyğunluğun bəyan edilməsi və əgər əhəmiyyətli kənarlaşmalar varsa, bu halların maliyyə hesabatlarında açıqlanması və izah edilməsi
- Əgər yaxın gələcəkdə Azərbaycan Respublikasının Auditorlar Palatası işini normal şərtlər altında davam etdirəcəksə, hesabat tarixinə maliyyə hesabatlarının daimlik prinsipi əsasında hazırlanması.

Rəhbərlik həmçinin aşağıdakı məsələlər üzrə məsuliyyət daşıyır:

- Azərbaycan Respublikasının Auditorlar Palatasının daxilində səmərəli və keyfiyyətli daxili nəzarət sisteminin işlənib hazırlanması, qurulması və möhkəmləndirilməsi
- Maliyyə hesabatlarının mövcud qanunvericiliyə uyğun olaraq düzgün hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat sisteminin təşkil edilməsi
- Yerli mühasibat sisteminin qanunvericilik və Azərbaycan Respublikasının mühasibat standartlarına uyğun olaraq təşkil edilməsi
- Mümkün imkanlardan istifadə edərək Azərbaycan Respublikasının Auditorlar Palatasının aktivlərinin mühafizə edilməsinin təşkil olunması
- Saxtakarlıq, yanlışlıq və digər qanunauyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması.

________________________

**Sədr**

________________________

**Maliyyə və texniki təminat idarəsinin rəisi, baş mühasib**

**M.Y.**

# MÜSTƏQİL AUDİTORUN HESABATI

**Azərbaycan Respublikası Auditorlar Palatasına**

**Rəy**

Azərbaycan Respublikası Auditorlar Palatasının (Palata) 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditi aparılmışdır.
Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Palatanın 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

**Rəy üçün əsaslar**

Audit Beynəlxalq audit standartlarına (BAS) uyğun aparılmışdır. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar Mühasiblərin Etika Məcəlləsinin" (IESBA) tələblərinə uyğun olaraq Palatadan asılı deyilik və biz digər etik öhdəliklərimizi IESBA məcəlləsinin tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Palatanı ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Palatanın fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Palatanın maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəffavlıq nümayiş etdiririk.

"BKR Konsaltinq" MMC

Auditor E. Əliyev

Bakı şəhəri, Azərbaycan Respublikası
10.03.2026

# Azərbaycan Respublikasının Auditorlar Palatası

## Maliyyə vəziyyəti haqqında hesabat

31 dekabr 2025-ci il tarixə

| | Qeyd | 2025 | AZN<br>2024 |
|---|---|---|---|
| **QISAMÜDDƏTLI AKTIVLƏR** | | | |
| Pul vəsaitləri və qısamüddətli depozitlər | 4 | 726 197 | 550 990 |
| Üzvlük haqları üzrə debitor borcları | 5 | 166 183 | 109 839 |
| Ehtiyatlar | 7 | 35 647 | 15 295 |
| Sair qısamüddətli debitor borcları | 6 | 27 315 | 7 323 |
| Sair qısamüddətli aktivlər | 8 | 599 916 | 590 440 |
| ***Cəmi qısamüddətli aktivlər*** | | **1 555 259** | **1 273 888** |
| **UZUNMÜDDƏTLI AKTIVLƏR** | | | |
| Torpaq, tikili və avadanlıqlar | 3 | 138 869 | 125 266 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | | **138 869** | **125 266** |
| **CƏMİ AKTİVLƏR** | | **1 694 127** | **1 399 154** |
| **QISAMÜDDƏTLI ÖHDƏLİKLƏR** | | | |
| İşçi heyəti üzrə əmək haqqı üzrə öhdəliklər | | 0 | 24 |
| Kreditor borcları və ödənilmiş xərclər | 9 | 7 037 | 5 795 |
| Sair qısamüddətli öhdəliklər | 10 | 25 035 | 14 050 |
| Vergi və icbari ödənişlər üzrə öhdəliklər | | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | | **32 071** | **19 868** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **32 071** | **19 868** |
| **KAPITAL** | | | |
| Auditorlar Palatası üzvlərinin vəsaitləri | | 1 662 056 | 1 379 286 |
| **CƏMİ KAPİTAL** | | **1 662 056** | **1 379 286** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1 694 127** | **1 399 154** |

*Sədr* __________________

*M.Y.*

*Maliyyə və texniki*
*təminat idarəsinin rəisi,*
*baş mühasib* __________________

# Azərbaycan Respublikasının Auditorlar Palatası

## Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat

31 dekabr 2025-ci il tarixə

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| **Əməliyyat gəlirləri** | | |
| Üzvlük haqları | 1 462 373 | 1 312 321 |
| Ixtisasartırma və imtahan haqları | 47 805 | 33 065 |
| Qrant və ianələr | 27 300 | 78 500 |
| Digər gəlirlər | 100 | 0 |
| **Cəmi əməliyyat gəlirləri** | **1 537 579** | **1 423 886** |
| | | |
| **Əməliyyat xərcləri** | | |
| İşçilərə çəkilən xərclər | -903 089 | -731 115 |
| Ezamiyyə xərcləri | -54 548 | -67 892 |
| Məlumat və reklam xərcləri | -107 807 | -108 781 |
| Çap və mətbuat xərcləri | -19 825 | -16 126 |
| Informasiya Texnologiyaları dəstəyi və ofis xərcləri | -9 666 | -16 403 |
| Amortizasiya və qiymətdən düşmə xərcləri | -24 803 | -27 076 |
| Rabitə xərcləri | -29 838 | -32 818 |
| Peşəkar təşkilatlarda üzvlük haqqı | -25 003 | -23 780 |
| Audit və peşəkar xidmətlər | -67 040 | -74 524 |
| Sair əməliyyat xərcləri | -28 839 | -50 484 |
| Sığorta xərcləri | -3 334 | -3 194 |
| Bank xərcləri | -7 267 | -7 270 |
| Konfrans xərcləri | -32 598 | -81 177 |
| Icarə xərcləri | -5 000 | -5 000 |
| Vergi xərcləri | -1 489 | -2 647 |
| Sosial xarakterli xərclər | -12 131 | -11 457 |
| Kommunal xərclər | -6 061 | -4 258 |
| Ümidsiz borclar üzrə ehtiyat xərcləri (-) /gəlirləri(+) | 44 896 | 0 |
| **Cəmi əməliyyat xərcləri** | **-1 293 441** | **-1 264 002** |
| Xarici valyuta məzənnə fərqləri | 315 | -271 |
| **İllik artım/çatışmazlıq** | **244 452** | **159 612** |

*Sədr* ____________________

*M.Y.*

*Maliyyə və texniki*
*təminat idarəsinin rəisi,*
*baş mühasib* ____________________

# Azərbaycan Respublikasının Auditorlar Palatası

## Kapitalda dəyişikliklər haqqında hesabat

31 dekabr 2025-ci il tarixə

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| **İlin əvvəlində kapital** | **1 379 286** | **1 219 673** |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 38 318 | 0 |
| İllik artım/çatışmazlıq | 244 452 | 159 613 |
| **İlin sonunda kapital** | **1 662 056** | **1 379 286** |

*Sədr* ____________________

*M.Y.*

*Maliyyə və texniki təminat idarəsinin rəisi, baş mühasib* ____________________

## Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

31 dekabr 2025-ci il tarixə

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin hərəkəti** | | |
| Üzvlük haqqları | 1 463 893 | 1 276 848 |
| İxtisas artırma kurslarından və imtahanlar | 47 805 | 33 065 |
| İanələr və qrantlar | 27 300 | 78 500 |
| Digər gəlirlər – silinmiş xərclərin bərpa edilməsi | | |
| Cəmi: | ***1 538 998*** | ***1 388 413*** |
| *Pul məxarici:* | | |
| İşçilərin xərcləri | -903 089 | -731 115 |
| Digər ödənişlər | -445 594 | -506 820 |
| Cəmi: | **-1 348 684** | **-1 237 935** |
| **Əməliyyat fəaliyyətindən xalis pul axını** | **190 314** | **150 479** |
| **İnvestisiya fəaliyyətindən pul axını** | 0 | 0 |
| *Pul məxarici:* | | |
| Əsas vəsaitlərin alınması | -15 108 | -24 033 |
| **İnvestisiya fəaliyyətindən çıxan xalis pul axını** | **-15 108** | **-24 033** |
| **Pulda xalis artım/azalma** | **175 206** | **126 446** |
| ***İlin əvvəlində pul və pul ekvivalentləri*** | ***550 990*** | ***424 545*** |
| ***İlin sonunda pul və pul ekvivalentləri*** | ***726 197*** | ***550 990*** |

*Sədr* ____________________

*M.Y.*

*Maliyyə və texniki təminat idarəsinin rəisi, baş mühasib* ____________________

## 1. Azərbaycan Respublikası Auditorlar Palatası haqqında məlumat

Azərbaycan Respublikasının Auditorlar Palatası müstəqil maliyyə orqanıdır. Auditor xidmətinin tənzimlənmə və inkişaf təşkilatçılığını, mülkiyyətçinin hüquqlarının müdafiəsini, dövlət marağını, idarəedici subyekt və auditorları, müstəqil auditorların fəaliyyətinə və tələblərin həyata keçirilməsində auditor təşkilatçılığına nəzarəti Azərbaycan Respublikasının qanunvericilik aktlarına uyğun həyata keçirir.

Auditorlar Palatası fəaliyyətə 4 aprel 1996-cı ildən başlayıb və VÖEN 1500284011 əsasən vergi ödəyicisidir. Azərbaycan Respublikasının Auditorlar Palatası Azərbaycan Respublikasının Milli Məclisinin 1115 saylı 19.09.1995-ci il tarixli Qərarı ilə təsdiq edilmiş Əsasnaməyə əsasən fəaliyyət göstərir.

***Məqsədlər*** – mülkiyyət formasından asılı olmayaraq bütün təsərrüfat subyektlərində maliyyə və mühasibat uçotunun dəqiq və dürüst aparılmasını təmin etmək; auditor xidmətinin işini təşkil etmək və mövcud qanunvericiliyə uyğun olaraq onun inkişafı və fəaliyyətinin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirilməsi.

***Funksiyalar*** – Azərbaycan Respublikası ərazisində sərbəst auditorlara və auditor təşkilatlarına lisenziya (icazə) verilməsi, onların işlərinə və auditor təşkilatlarının nizamnamələrinin ”Auditor xidməti haqqında” Azərbaycan Respublikası Qanununa uyğunluğuna nəzarət edilməsi; audit aparılmasına dair təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması; təkrar auditlərin keçirilməsi; dövlət müəssisələrinin özəlləşdirilməsi və ya başqa məqsədlərlə əlaqədar olaraq təsərrüfat subyektlərinin əmlaklarının qiymətləndirilməsinin düzgünlüyünə auditor rəylərinin verilməsi.

***Səlahiyyətlər*** – sərbəst auditorların və auditor təşkilatlarının apardıqları auditin keyfiyyətini yoxlamaq və auditin aparılmasında qanun pozuntusuna yol verildikdə auditor fəaliyyəti ilə məşğul olmaq hüququ verən lisenziyanı (icazəni) geri almaq; sərbəst auditorlar və auditor təşkilatları ilə onların sifarişçiləri arasında baş verən müxtəlif xarakterli mübahisələrə baxmaq; auditorların fəaliyyəti üzrə şikayətlərə baxıb onları həll etmək; fiziki və hüquqi şəxslərə auditor fəaliyyəti və maliyyə-təsərrüfat münasibətləri sahəsində xidmət göstərmək; Palataya aid olan auditor xidmətinin sair məsələlərini həll etmək.

Auditorlar Palatasının maliyyə-təsərrüfat fəaliyyətinə aşağıdakı şəxslər cavabdehdilər:

- Sədr: Novruzov Vahid Tapdıq oğlu
- Sədr müavini: İsmayılov Fəxrəddin Həsən oğlu
- Maliyyə və texniki təminat idarəsinin rəisi, baş mühasib:
    - Abbasov Bəhman Əli oğlu (01.01.2025 – 11.08.2025)
    - Əhmədov Qoşqar İlkin oğlu (11.08.2025 – 31.12.2025)

Auditorlar Palatasının hüquqi ünvanı: AZ1072, Bakı şəhəri, S.Y.Bakuvi küçəsi, 35.

Təqdim edilən sənədlərin və məlumatların düzgünlüyünə “Sifarişçi”nin məsul şəxsləri məsuliyyət daşıyır.

## 2. Uçot siyasətinin açıqlanması

### *Hesabatın hazırlanmasının əsasları*

Azərbaycan Respublikasının Auditorlar Palatasının maliyyə hesabatları Beynəlxalq İctimai Sektor Uçot Standartlarına uyğun olaraq hazırlanıb. Beynəlxalq İctimai Sektor Uçot Standartı təfsilatlı tələblər ünvanlamadığı hallarda, müvafiq Beynəlxalq Maliyyə Hesabatı Standartı/Beynəlxalq Uçot Standartları tətbiq olunub.

Maliyyə hesabatlarının qəbul edilmiş ümumi uçot təcrübəsinə uyğun hazırlanması hesabat tarixində gəlir və xərclərin məbləğlərinin hesabat dövründə aktiv və öhdəliklərin məbləğinə təsir göstərən qiymətləndirmələrin və şərti öhdəliklərin istifadəsini tələb edir. Bu qiymətləndirmələr və ehtimallar menecmentin (rəhbərliyin) qısamüddətli hadisə və hərəkətlər barədə biliyinə əsaslanır, sonda nəticələr həmin qiymətləndirmələrdən və ehtimallardan fərqli ola bilər.

Azərbaycan Respublikasının milli valyutası manatdır (AZN).

Təqdim olunan əlavə informasiyanın AZN ilə verilməsi məqsədilə, maliyyə hesabatlarındakı xarici valyutalarda aparılmış bütün məbləğləri Azərbaycan Respublikası Mərkəzi Bankın əməliyyatların aparılması tarixindəki rəsmi məzənnəsinə uyğun olaraq 31 dekabr 2025-ci il tarixə manatla ifadə edilmişdir.
Bu maliyyə hesabatları Azərbaycan manatı (manat) ilə ifadə olunur.

### *Ölçü və hesabat metodu*

Maliyyə icrası, maliyyə vəziyyəti hesabatları hazirlanarkən mühasibat uçotunun hesablama metodu tətbiq olunmaqla aktivlər ilkin dəyər uçot prinsiplərinə əsaslanaraq hazırlanmışdır.

### *Uçot siyasətləri*

Maliyyə fəaliyyətinin nəticələri və maliyyə vəziyyətinin qiymətləndirilməsinə əhəmiyyətli təsir göstərən spesifik uçot siyasətləri aşağıdakılardır:

### *Gəlirin tanınması*

*Üzvlük haqqı gəliri*

Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlük haqqını təqvim ili əsasında təsdiq edir. Haqq üzv tərəfindən hər müvafiq ilin mart ayında hesab-fakturanın göndərilməsindən sonra ilin birinci yarısının sonuna qədər ödənilməlidir. Palatanın üzvlərinin üzvlük haqqı məbləği Palatanın üzvlərinin təşkilati - hüquqi formasından asılı olaraq müxtəlifdir. Üzvlük haqqının məbləği aşağıdakı kimidir:

- Sərbəst auditorlar üçün – 2 920 manat məbləğində
- Yerli auditor təşkilatları üçün – 5 972 manat məbləğində
- Xarici hüquqi şəxslərin (xarici auditor təşkilatlarının) Azərbaycan Respublikasındakı filial və ya nümayəndələri üçün – 23 886 manat məbləğində
- Nizamnamə kapitalında xarici hüquqi və (və ya) fiziki şəxslərin payı olan, habelə xarici hüquqi şəxslərin ticarət nişanından istifadə edən auditor təşkilatları üçün – 12 064 manat məbləğində.

*Nəşriyyat gəliri*

Çap olunmuş materialların satışından gələn gəlir alıcılara çatdırılan məhsulla təsdiqlənir.

### *Debitor borcları*

Debitor borcları, şübhəli borclar üçün yaradılmış ehtiyatı çıxdıqdan sonra onların güman edilən satış dəyəri ilə əks etdirilir.

### *İşçilərin mükafatlandırılması*

İşçilərə hesablanmış əmək haqqı, illik məzuniyyət, müavinətlər və sairə gəlir haqqları onların aid olduğu hesabat dövrünə aid edilir. İllik məzuniyyət ödənişi cari dövr üçün əmək haqqı normasına əsasən hesablanır.

Bundan əlavə, Azərbaycan Respublikası Auditorlar Palatası Dövlət Sosial Müdafiə Fonduna hər bir işçinin əmək haqqının 15% məbləğində ödənişlər ödəyir və işçinin əmək haqqından 10% tutulmalar həyata keçirir. Sosial sığorta ayırmaları yaranma tarixində xərc kimi tanınır.

### *Torpaq, tikili və avadanlıqlar*

*Torpaq, tikili və avadanlıqlar*

Torpaq, tikili və avadanlıqlar onların satınalma dəyəri və ya istehsal qiymətindən onlara hesablanmış amortizasiya və dəyərdən düşmə məbləği çıxılmaqla qalıq dəyəri ilə göstərilir. Təsərrüfatdaxili istehsal olunmuş əsas vəsaitlər, onlara sərf edilmiş material dəyəri, əmək haqqı və inzibati xərclərinin müvafiq payı aid edilir.

*Əsas vəsaitlər və amortizasiya*

Amortizasiya, əsas vəsaitin alındığı və ya təsərrüfat daxili istehsal olunarsa, istifadəyə yararlı olduğu gündən etibarən, faydalı istismar müddətinə müvafiq olaraq azalan qalıq dəyəri metodu tətbiq olunmaqla hesablanır. Əsas vəsaitlərin kateqoriyaları üzrə istifadə olunan amortizasiya normaları aşağıdakılardır:

- Binalar - 20 il və ya 7%
- Ofis avadanlığı - 5 - 8 il və ya 25%
- Mebel və ləvazimat - 10 il və ya 20%
- Nəqliyyat vasitəsi - 10 il və ya 25%

Bina və avadanlıqların təmiri və xidmət xərcləri baş verdiyi dövrün xərcləri kimi tanınır. Əsaslı təmir xərcləri isə gələcək dövrün xərcləri kimi tanınaraq hissələrlə və ya təmir fondu ehtiyatı yaradıldığı halda ehtiyat hesabına silinir.

Əməliyyat qrupuna aid olan, lakin əməliyyat məqsədləri üçün istifadə edilməyən əsas vəsaitlər üçün ehtiyat yaradılır. Həmin ehtiyatlara hər balans tarixində yenidən baxılır.

### *Xarici valyuta*

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyat tarixindəki rəsmi mübadilə məzənnəsinə uyğun olaraq AZN ekvivalentinə çevrilir. Xarici valyutalarda balans tarixindəki aktiv və passivlər tarixə uyğun mübadilə normalarına uyğun olaraq çevrilir. Son (yekun) gəlir və ya itki maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda təsdiq olunur.

### *Vergitutma*

İllik gəlirdən və ya itkidən mənfəət vergisi cari vergidən ibarətdir. Mənfəət vergisi kapitalla birbaşa əlaqəli bəndlər istisna olmaqla maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda təsdiq olunur.

Üzvlük haqları vergiyə cəlb edilən gəlirə aid deyildir.

Cari ödənilməli olan vergi təyin edilmiş vergi normalarından istifadə etməklə illik ödənilməsi güman edilən və ya balans tarixində təyin edilən və əvvəlki illər nəzərə alınmaqla ödənilməli vergiyə edilən hər hansı bir tənzimləmədir.

Balans öhdəlikləri metodunun istifadəsi ilə təqdim olunan təxirəsalınmış vergi, aktivlər və passivlərin daşınan məbləğləri arasında müvəqqəti fərqlər üçün verilən maliyyə hesabatı və vergitutma məqsədləri üçün istifadə olunan məbləğlərdir. Müvəqqəti fərqlər nə uçot, nə də vergi mənfəətinə təsir göstərən aktivlər və passivlərin ilkin təsdiqinə hörmət əlaməti olaraq verilmir. Verilən təxirəsalınmış vergi məbləği satışın və ya aktiv və passivlərin daşınan məbləğlərinin yeri, vergi normasının istifadəsi və ya balans tarixində təsdiqində gözlənilən qaydaya əsaslanır.

Təxirəsalınmış vergi aktivi yalnız gələcək vergi əvəzləşdirilə bilən gəlir istifadə olunmayan vergi itkisi və kreditlərin istifadəsinə qarşı olan təqdirdə mümkündür. Təxirəsalınmış vergi aktivləri əlaqəli vergi mənfəətinin həyata keçirilməsi zamanı azaldılır.

### *Maliyyə alətləri*

Azərbaycan Respublikası Auditorlar Palatası qeyri-istehsal maliyyə alətlərindən onun normal əməliyyatlarının bir hissəsi kimi istifadə edir. Bu maliyyə alətləri bank hesabları, depozit sertifikatları və debitor hesablarını əhatə edir.

### *Pul vəsaitlərinin hərəkəti haqqında hesabat*

Pul vəsaitlərinin hərəkəti haqqında hesabatda istifadə olunan bəndlər aşağıdakılardır:

(a) Pul vəsaitləri iki iş günü ərzində pula çevrilən əldəki nağd pulu, mövcud bank balanslarını və qısamüddətli depozitləri əhatə edir.

(b) Əməliyyat fəaliyyəti investisiyalar və ya maliyyələşdirmə fəaliyyəti olmayan bütün əməliyyatlar və digər hadisələri əhatə edir.

(c) İnvestisiya fəaliyyəti əsas vəsaitlərin və investisiyaların əldə edilməsi, saxlanılması və xaric edilməsi ilə bağlı fəaliyyətdir. İnvestisiyalar pul vəsaitlərinin tərifinə düşməyən qiymətli kağızları əhatə edə bilər.

(d) Maliyyələşdirmə fəaliyyəti Auditorlar Palatasının kapital strukturunun ölçüsü və tərkibində dəyişikliklərə səbəb olan tədbirlərdir. Bu, həm pul vəsaitlərinin tərifinə düşməyən kapital və borcları əhatə edir.

### *Uçot siyasətlərində dəyişikliklər*

Cari ildə uçot siyasətlərində heç bir dəyişiklik edilməmişdir.

## 3. Torpaq, tikili və avadanlıqlar

AZN

| | Binalar | Ofis avadanlığı | Mebel və ləvazimat | Nəqliyyat vasitələri | Digər | Cəmi |
|---|---|---|---|---|---|---|
| **Əsas vəsaitlərin ilkin dəyəri** | **151 829** | **63 051** | **37 710** | **309 319** | **7 552** | **569 461** |
| **Yığılmış amortizasiya** | **-80 270** | **-59 481** | **-31 853** | **-269 547** | **0** | **-441 151** |
| **Qalıq balans dəyəri 01 yanvar, 2024** | **71 559** | **3 570** | **5 857** | **39 772** | **7 552** | **128 310** |
| · Daxilolmalar | 16 897 | 7 136 | 0 | 0 | 0 | **24 033** |
| · Xaric olmalar | 0 | 0 | 0 | 0 | 0 | **0,00** |
| · Amortizasiya | -5 647 | -3 952 | -2 785 | -14 693 | 0 | **-27 076** |
| **Əsas vəsaitlərin ilkin dəyəri** | **168 726** | **70 187** | **37 710** | **309 319** | **7 552** | **593 494** |
| **Yığılmış amortizasiya** | **-85 917** | **-63 433** | **-34 638** | **-284 240** | **0** | **-468 228** |
| **Qalıq balans dəyəri 31 dekabr, 2024** | **82 809** | **6 754** | **3 072** | **25 079** | **7 552** | **125 266** |
| · Düzəliş ilkin dəyər | 0 | 6 140 | 3 801 | 0 | -183 | **9 759** |
| · Düzəliş amortizasiya | -7 788 | 1 843 | 708 | 19 000 | 0 | **13 763** |
| **Qalıq balans dəyəri 01 yanvar, 2025** | **75 021** | **14 737** | **7 582** | **44 079** | **7 369** | **148 787** |
| · Daxilolmalar | 0 | 6 188 | 8 920 | 0 | 0 | **15 108** |
| · Xaric olmalar | 0 | 0 | -224 | 0 | 0 | **-224** |
| · Amortizasiya | -5 251 | -5 231 | -3 300 | -11 020 | 0 | **-24 803** |
| **Əsas vəsaitlərin ilkin dəyəri** | **168 726** | **82 515** | **50 207** | **309 319** | **7 369** | **618 136** |
| **Yığılmış amortizasiya** | **-98 956** | **-66 822** | **-37 230** | **-276 260** | **0** | **-479 268** |
| **Qalıq balans dəyəri 31 dekabr, 2025** | **69 770** | **15 694** | **12 977** | **33 059** | **7 369** | **138 869** |

Auditorlar Palatası üzrə 14.05.2025-ci il tarixdə əsas vəsaitlərin inventarizasiyası keçirilmişdir.

## 4. Pul vəsaitləri və qısamüddətli depozitlər

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Kassada olan nəğd pul | 0 | 0 |
| Bank hesabı milli valyuta ilə | 725 543 | 550 365 |
| Bank hesabı xarici valyuta ilə | 113 | 81 |
| Korporativ kart hesabı | 541 | 544 |
| **Cəmi pul vəsaitləri və qısamüddətli depozitlər** | **726 197** | **550 990** |

## 5. Üzvlük haqqları üzrə debitor borcları

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Alınmalı üzvlük haqları | 166 183 | 348 978 |
| Şübhəli və ümidsiz borclar üzrə ehtiyatlar | 0 | -239 139 |
| **Cəmi üzvlük haqları üzrə debitor borcları – xalis** | **166 183** | **109 839** |

## 6. Sair qısamüddətli debitor borcları

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| İşçi heyətinin sair debitor borcları | 0 | 0 |
| İşçi heyətinə verilmiş borclar | 27 315 | 7 323 |
| **Cəmi sair qısamüddətli debitor borcları** | **27 315** | **7 323** |

## 7. Ehtiyatlar

Azərbaycan Respublikası Auditorlar Palatası Beynəlxalq Audit Standartlarının Azərbaycan dilində tərcüməsini, elmi-metodik materiallar nəşr edir. Elmi-metodik nəşr üzrə hazır məhsul müvafiq olaraq 2024-cü və 2025-ci illərin sonunda aşağıdakı kimi olmuşdur:

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Çap məhsulları | 35 647 | 15 295 |
| **Cəmi ehtiyatlar** | **35 647** | **15 295** |

## 8. Sair qısamüddətli aktivlər

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Vergi avansları | 8 397 | 10 115 |
| Işçi heyətinə verilmiş avanslar | 0 | 302 |
| Verilmiş avanslar (Kreditorlar) | 7 415 | 7 453 |
| İşçi personal üzrə digər aktivlər | 550 804 | 550 804 |
| Təhtəlhesab şəxslərlə hesablaşmalar | 11 526 | 12 776 |
| DSMF - Sosial sığorta - avans | 19 065 | 7 140 |
| İşsizlik sığortası- avans | 32 | 29 |
| İTS - İcbari Tibbi sığorta- avans | 2 677 | 1 821 |
| **Cəmi sair qısamüddətli aktivlər** | **599 916** | **590 440** |

## 9. Qısamüddətli kreditor borcları

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Mal satan və podratçılara kreditor borcları | 6 557 | 5 795 |
| Kurslarda tədris haqqı | 480 | 0 |
| **Cəmi qısamüddətli kreditor borcları** | **7 037** | **5 795** |

## 10. Sair qısamüddətli öhdəliklər

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Alınmış qısamüddətli avanslar | 25 035 | 12 067 |
| Təhtəlşəxslərə öhdəlik | 0 | 1 982 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **25 035** | **14 049** |

## 11. Öhdəliklər

*Sosial (ictimai) öhdəliklər*

Azərbaycan Respublikası Auditorlar Palatası bir çox məcburi sosial proqramlara investisiyalar həyata keçirir. Azərbaycan Respublikası Auditorlar Palatasının sosial aktivləri həmçinin yerli sosial proqramlar Palataya xeyir gətirir və adətən Auditorlar Palatasının işçiləri ilə məhdudlaşmır. Azərbaycan Respublikası Auditorlar Palatası yerli səlahiyyətlərə dəqiq sosial əməliyyatlar və aktivlər həyata keçirir. Menecment (rəhbərlik) ümid edir ki, Azərbaycan Respublikası Auditorlar Palatası gələcəkdə də bu sosial proqramları davam etdirəcək. Bu xərclər müvafiq ilə uyğun əks etdirilir.

## 12. Əlaqəli tərəflərlə əməliyyatlar

Azərbaycan Respublikasının Auditorlar Palatası əlaqəli tərəflərlə bağlı hər hansı bir mühüm əməliyyatlar həyata keçirmir.

## 13. Əməliyyat fəaliyyətindən pul vəsaitləri axını

AZN

| | 2025 | 2024 |
|---|---|---|
| Əməliyyat dövründə xalis artıq/(defisit) | 282 770 | 159 341 |
| *Əlavə/(əskik) qeyri-pul bəndləri:* | | |
| Amortizasiya və qiymətdəndüşmə | 24 803 | 27 076 |
| Məzənnə fərqləri | -315 | 271 |
| *Aşağıdakı maddələr üzrə baş verən dəyişikliklər:* | | |
| İşçi kapitalının artımı (azalması) | -24 | 24 |
| Üzvlük haqları üzrə debitor borcların artımı (azalması) | -56 344 | -28 236 |
| Sair debitor borcların artımı (azalması) | -19 992 | -4 666 |
| Ehtiyatların artımı (azalması) | -36 473 | -26 866 |
| Digər debitor borcların artımı (azalması) | -9 477 | 255 |
| Kreditor borcların artımı (azalması) | 1 242 | 1 677 |
| Digər öhdəliklər və dəyəri ödənməmiş xərclərin artımı (azalması) | -10 985 | -2 430 |
| | | |
| **Əməliyyat fəaliyyətindən xalis pul axını (gəliri)** | **175 206** | **126 446** |

## 14. Vergi öhdəlikləri

Azərbaycan Respublikasının Auditorlar Palatasının 2025-ci il üzrə vergi mükəlləfiyyətləri üzrə aşağıdakı öhdəlikləri yaranmışdır:

- Mənfəət vergisi üzrə - 610,82 manat
- Əmlak vergisi üzrə - 1 446,28 manat
- Torpaq vergisi üzrə - 42,94 manat

Öncəki illərdən dövlət büdcəsinə avans məbləğ olduğu üçün, cari il üzrə yaranmış vergi öhdəlikləri artıq ödəmə ilə əvəzləşdirilmişdir.

## 15. Risklərin idarə edilməsi

*Kredit riski*

Azərbaycan Respublikasının Auditorlar Palatası kredit riski konsentrasiyası üçün potensial müzakirə mövzusu olan maliyyə aktivləri pul və debitor borclarından ibarətdir. Azərbaycan Respublikası Auditorlar Palatasının pul depozitləri mötəbər maliyyə müəssisələri ilə yerləşdirilmişdir.

*Faiz dərəcəsi riski*

Azərbaycan Respublikasının Auditorlar Palatasının bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli faiz xərcləri sığortalanmamışdır. Menecment (idarəçilik) inanır ki, faiz dərəcəsinin daimi olmamasından irəli gələn ədalətli dəyərə dəyişikliklər əhəmiyyətli xarakter daşımır.

*Ədalətli dəyər*

Pul və pul ekvivalentlərinin, alınacaqların, yenidən ödənişlərin, Sair aktivlər, ödənişlər və Qısamüddətli borcların daşınmasını onların qısamüddətli yetkinliyinə uyğun müvafiq olaraq 3-cü və 5-ci qeydlərdə müzakirə edilən uyğun ümidsiz alınacaqlar və ehtiyatlar üçün təminat üçün bazar qiymətlərilə uyğunlaşdırılır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

## 16. Hesabat tarixindən sonra baş vermiş hadisələr

Hesabat tarixindən sonra maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcək hadisələr baş verməmişdir.

*Sədr* ____________________

*M.Y.*

*Maliyyə və texniki*
*təminat idarəsinin rəisi,*
*baş mühasib* ____________________

**2025-ci ilin maliyyə hesabatlarının auditinə dair yekun sənədlərin**

**T Ə H V İ L - Q Ə B U L AKTI**

«İcraçı» "BKR Konsaltinq" MMC və «Sifarişçi» Azərbaycan Respublikasının Auditorlar Palatası bu Aktı ona görə tərtib edirlər ki, «İcraçı» tərəfindən müqavilənin şərtlərinə uyğun olaraq audit aparılmışdır və yekun sənədlər təhvil verilmişdir.

| **Təhvil verdi:** | **Təhvil aldı:** |
|---|---|
| **«İcraçı»** | **«Sifarşçi»** |
| **Direktor** | **Sədr** |
| **E. Əliyev** | **V. Novruzov** |
| ____________________ | ____________________ |
| M.Y. | M.Y. |